-şagirdlər qarşısında vahid tələblərin qoyulmasına, ailə ilə məktəbin (litsey) əlaqəsinin möhkəmləndirilməsinə çalışmaq;

-valideynlərlə daimi əlaqə saxlamaq, valideyn iclaslarını təşkil etmək və keçirmək, şagirdlərin təhsili və tərbiyəsi barədə valideynlərə məlumat vermək;

-ev tapşırıqlarının yerinə yetirilməsi və asudə vaxtın səmərəli təşkili sahəsində şagirdlərə köməklik göstərmək, onların sağlamlığına və məişət şəraitinin yaxşılaşdırılmasına qayğı göstərmək;

-hüquq pozuntularının, narkomaniyanın, alkoqolizmin qarşısının alınması və onların aradan qaldırılması ilə əlaqədar həyata keçirilən tədbirlərdə iştirak etmək;

6. Sinif rəhbəri peşə məktəbi və peşə litseyinin planına uyğun olaraq qrupun tərbiyə səviyyəsini, şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, maraq və inkişaf dərəcəsini nəzərə alaraq istehsalat təlimi ustaları və qrupun fəalları ilə birlikdə plan tərtib edir və həyata keçirir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN BAŞ USTASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 02.05.2000-ci il marixli 403 №-li əmri ilə məsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisəsinin baş ustası təhsil müəssisəsində şagirdlərin istehsalat təlimi və təcrübəsini, istehsalat təlimi proqramının yerinə yetirilməsini təşkil edir, istehsalat təlimi ustalarının təlim-tərbiyə işlərinə, tədris-istehsalat emalatxanası və poliqonların işçilərinin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir.

2. Baş usta şagirdlərin istehsalat təlimi və təcrübəsinin vəziyyəti və peşə hazırlığının səviyyəsi, istehsalat planının yerinə yetirilməsi, buxarılan məhsulun keyfiyyəti, avadanlığın vəziyyəti, emalatxanalarda, poliqonlarda istehsalat təlimi və təcrübəsi vaxtı şagirdlərin əməyinin təhlükəsizliyinin təmin edilməsi üçün cavabdehdir.

3. Baş usta öz işini bilavasitə tədris-istehsalat işləri üzrə direktor müavininin rəhbərliyi altında həyata keçirir.

4. Baş usta müntəzəm olaraq ixtisas biliyini, pedaqoji ustalığını və metodiki hazırlığını artırmalıdır.

5. Baş usta peşə təhsili müəssisəsinin direktoru tərə-findən müəssisəsinin profilinə uyğun, yüksək ixtisasa və təcrübəyə malik, peşə təhsili sistemində ən azı 3 il pedaqoji stajı olan ali və yaxud orta ixtisas təhsilli şəxslərdən təyin edilir.

**II. Baş ustanın vəzifələri.**

6. Tədris plan və proqramlarına uyğun olaraq şa-girdlərin istehsalat təlimini, istehsalat təcrübəsini və tədris istehsalat fəaliyyətini təşkil edir.

7. İstehsalat təlimi ustalarının təlim-tərbiyə və meto-diki işlərinə, onların tədris-istehsalat fəaliyyətin rəhbərlik edir.

8. İstehsalat təlimi ustalarının işinin planlaşdırılma sında iştirak edir və peşələr üzrə istehsalat işlərinin siyahısı-nı hazırlayır.

9. Tədris-istehsalat emalatxanalırının və təlim təsər rüfatının göstəricilərinə dair uçot-hesabata sənədlərinin aparılmasına nəzarət edir.

10. İstehsalat təliminin təkmilləşdirilməsi və təlim prosesində yeni texnika və mütərəqqi texnologiyaların tət biqi ilə əlaqədar istehsalat təlimi ustaları üçün metodik müşavirələr təşkil edir. Onların ixtisasının artırılması v müəssisələrdə staj keçməsi üçün tədbirlər görür.

11. Tədris emalatxanaları, poliqon və laborator yaların yeni texnika, avadanlıq, material, alət, ləvazimat v texnoloji sənədlərlə təchiz olunmasını təşkil edir.

12. Tədris emalatxanalarında olan maşın, mexaniz və avadanlıqdan düzgün və təhlükəsiz istifadə və istism edilməsinə nəzarət edir, onların vaxtında təmiri və moder ləşdirməsi üçün tədbirlər görür, istismara yaramayan te nika və avadanlığın silinməsi üçün sənədlər hazırlayır.



13. Şagirdlərlə istehsalat təlimi məşğələlərinin təşkili və keçirilməsi sahəsində istehsalat təlimi ustalarına kömək edir.

14. Tədris emalatxanaları və poliqonlarda işin təhlü-kəsiz yerinə yetirilməsinə, yanğına qarşı tədbirlərin görül-məsinə və texniki sənədlərin aparılmasına nəzarət edir, şa-girdlərin yerinə yetirdikləri tədris-istehsalat işlərinin keyfiy-yətini yoxlayır.

15. Dövlət və qeyri-dövlət müəssisələri ilə, digər so-sial partnyorlarla müntəzəm əlaqə saxlayır, şagirdlərin is-tehsalat təcrübəsi keçmələri üçün iş yerlərini müəyyənləş-dirir. Bunun üçün müqavilənin layihəsini hazırlayır və istehsalat təlimi ustası ilə birlikdə tədris proqramlarına uyğun və müəssisənin istehsal şəraitindən asılı olaraq təd-ris-istehsalat işlərinin siyahısını tərtib edir.

16. Şagirdlərin istehsalat təlimi və təcrübəsi prose-sində yerinə yetirdikləri işlər üçün əmək haqqının hesab-lanması, peşə təhsili müəssisəsinin hesabına köçürülməsi və onun müəyyən olunmuş qaydada şagirdlərə verilməsinə nəzarət edir. Şagirdlərin istehsalat təlimi və təcrübəsi üzrə tədris planında nəzərdə tutulmuş attestasiyalarının, yox-lama və ixtisas (sınaq) işlərinin keçirilməsini təşkil edir.

17. Şagirdlərin dövlət buraxılış imtahanlarının təş-kilində və keçirilməsində iştirak edir.

18. İstehsalat təlimi ustaları ilə birlikdə şagirdlərin texniki yaradıcılıq, səmərələşdiricilik və ixtiraçılıq işini və peşə müsabiqələrini təşkil edir.

19. İstehsalat təlimi ustalarının, tədris-istehsalat emalatxanaları, poliqon və laboratoriya işçilərinin daxili intizam və əməyin təhlükəsizlik qaydalarının yerinə yetiril-məsinə nəzarət edir.

20. Təhsil müəssisəsinin iş planına uyğun keçirilən tədbirlərdə iştirak edir.

21. Təhsil müəssisəsinin pedaqoji şurasının üzvü-dür, metodiki komissiya və bölmələrin işində iştirak edir.

22. Gənclərin peşəyönümü işinin təşkilində və tədris qruplarının komplektləşdirilməsində iştirak edir.

**III. Baş ustanın hüquqları.**

Peşə təhsili müəssisəsinin baş ustası aşağıdakı hüquqlara malikdir:

26. Tədris-istehsalat və tərbiyə prosesinin təkmilləşdirilməsinə dair pedaqoji şuranın müzakirəsinə məsələlər çıxarır və təkliflər verir.

27. Qabaqcıl istehsalat təlimi ustaları və tədris istehsalat emalatxanaları işçilərinin mükafatlandırılması və əmək intizamını pozan işçilərin tənbeh olunması barədə təkliflər verir.

28. Baş usta pedaqoji işçilər kateqoriyasına daxildir və ixtisasına uyğun dərs demək hüququ vardır.

29. İstehsalat təlimi ustalarının seçilib yerləşdirilməsində rəyini bildirir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİNİN MEXANİKİ HAQQINDA
## Ə S A S N A M Ə

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il marixli 250 №-li əmri ilə məsdiq edilmişdir.*

**I. Ümumi müddəalar.**

1. Peşə təhsili müəssisəsində mexanik vəzifəsi mövcud maşın-mexanizm və tədris-istehsalat avadanlığının sayına əsasən müəyyən edilir.

Kənd təsərrüfatına kadr hazırlayan peşə məktəbi və peşə litseylərində mexanik eyni zamanda maşın-traktor parkının müdiri hesab olunur.

2. Peşə təhsili müəssisəsinin mexaniki öz fəaliyyətində rəhbər təşkilatların əmr və sərəncamlarına, avadanlıqdan istifadəyə dair normativ sənədlərə, eləcə də direktorun əmr və sərəncamlarına əsaslanır.

3. Mexanik bilavasitə baş ustanın rəhbərliyi altında işləyir.